# Görkəmli şəxsiyyətlər Süleyman Rəhimov haqqında

Süleyman Rəhimov həqiqətən bizim ədəbiyyatımızda özünəməxsus xüsusi bir yer tutur. Bilirsinizmi, ədəbiyyatda, ümumiyyətlə mədəniyyətdə və incəsənətdə çox şəxsiyyətlər olur. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tuturlar və ümumiyyətlə təkrarolunmazdırlar.

***

Bilirsiniz ki, insanlar arasında paxıllıq da, rəqabət də var. Bəziləri dedilər ki, niyə Süleyman Rəhimova belə yüksək ad – Sosialist Əməyi Qəhrəmanı adı verdilər? Hələ o vaxt düşünürdüm ki, Süleyman Rəhimov ədəbiyyatımızda həqiqətən özünəməxsus yer tutub.

***Heydər Əliyev,***
***ümummilli lider***

Süleyman nadir simalardandır. Məhz buna görə də mən ona bağlıyam. Süleyman Rəhimov Azərbaycan nəsrinin uzaqvuran, ağır artilleriyasıdır. Süleyman Rəhimov sənətin ağırlıqlarını öz bahadır çiyinlərində qaldıran bir sənətkardır. Onun sinəsində xalqın ürəyi döyünür. Bu romançı böyük yazıçıdır, xalq yazıçısıdır. Sözün əsl mənasında müdrik ədibdir".

***Səməd Vurğun,***
***Xalq şairi***

Süleyman Rəhimovun qələminə qida verən mənbə xalq çeşməsidirsə, ona ilham verən insanpərvərlikdir, insana böyük məhəbbətidir. Ölüm-dirim vuruşlarında əsarət və köləlik zəncirlərindən, köhnə dünyanın xüsusiyyətçilik, mənfəətpərəstlik, yaltaqlıq, xəbislik kimi çirkin qalıqlarından xilas olub saflaşan, nəcibləşən insan, azad insan, qurub-yaradan insan S.Rəhimovun əsas qəhrəmanıdır.

***

S.Rəhimovun nasirlərimiz içində böyük bir realist, dərin müşahidəçi, incə bir psixoloq olması son zamanlarda hər kəs tərəfindən təqdir edilməkdədir.

***Məmməd Arif,***
***Akademik***

Onun əsərləri müxtəlif dövrlərdə cəmiyyətin həyatını, insanların fikirlərində, hərəkətlərində və psixolojisində baş vermiş dəyişiklikləri öyrənmək üçün qiymətli mənbədir.

***Mirzə İbrahimov,***
***Xalq yazıçısı***

Mən Süleyman Rəhimovun əsərlərini oxuyanda öz-özümə deyirəm: Alo, Safo, Şamo, Gülsənəm, Göyərçin, Zülmət, Sübhanverdizadə, Nənəqız, Həcər... Bu surətləri ancaq Süleyman Rəhimov yarada bilərdi və "öz səsi, öz sözü olan sənətkar" – deyəndə bu həqiqəti nəzərdə tuturam.

***Məmməd Cəfər,***
***akademik***

Süleyman Rəhimov ədəbiyyata əsl həyatdan, zəhmətkeş kütlənin bağrından qopub gəldiyi üçün xalq ruhu, habelə mərdlik, namusluq, könül xoşluğu, vüqar, əzəmət və mətanət kimi nəcib insani keyfiyyətləri öz qəhrəmanları və surətləri vasitəsilə ədəbiyyatımızda davam və inkişaf etdirmişdir.

***Əli Vəliyev,***
***Xalq yazıçısı***

Bizdə sovet ədibləri nəslində Süleyman qədər zəngin həyat materialına, qüvvətli ənənəyə bağlı olan ikinci bir şəxsiyyət tapmaq çətindir. Bu, ədib üçün böyük xoşbəxtlikdir.

***Mir Cəlal Paşayev,***
***Əməkdar elm xadimi, professor, yazıçı***

Süleyman Rəhimov əsl xalq yazıçısıdır. Onun təsvir etdiyi insanlar son dərəcə təbii və canlıdır. Çünki o, bunları həyatda öz gözləri ilə görmüş, dərindən öyrənmiş və bundan sonra qələmə almışdır.

***Bülbül,***
***Xalq artisti***

Süleyman Rəhimovun yaradıcılığı xalqımızın zəngin, koloritli həyatını, məişətini öyrənmək üçün oxucuların etibar etdiyi, inandığı tükənməz mənbələrdəndir.

***Rza Təhmasib,***
***Xalq artisti***

Süleyman Rəhimov bizim nəsrimizdə orijinal bir sənətkardır. Onun özünəməxsus təsvir və tənqid vasitələri vardır.

***İlyas Əfəndiyev,***
***Xalq yazıçısı***

Xalq həyatına qırılmaz tellərlə bağlı olan, xalq idrakının incilərini ürəkdən sevən və yüksək qiymətləndirən ədibin romanlarında, povestlərində və rəvayətlərində elə motivlər, elə səhnələr vardır ki, bəstəkar xəyalını qanadlandırır və onları yeni-yeni əsərlər yazmağa ruhlandırır.

***Soltan Hacıbəyov,***
***Xalq artisti, bəstəkar***

Romanda ("Şamo") ana yurd – Azərbaycan torpağı Vətənini sonsuz bir məhəbbətlə sevən, mahir mənzərə ustasının fırçası ilə işlənmişdir. Füsunkar təbiət... Kəpəz, Murov, Lülpər, Dəli dağ, palıdlı meşələr, Çalbayır yaylaqları... güclü "major" rəng çaları və ahəngdar qradasiyalar ilə öz ritmini tapmışdır.

***Mikayıl Abdullayev,***
***Xalq rəssamı***

Süleyman Rəhimov yüksək tellərlə xalqa bağlanan, ondan ilham və qüdrət alan bir sənətkardır.

***Cəfər Xəndan,***
***filologiya elmləri doktoru, professor***

Dərin və orijinal məzmuna, maraqlı sənətkarlıq xüsusiyyətlərinə malik olan "Mehman" povesti Azərbaycan sovet nəsrinin gözəl nümunələrindən biridir.

***Kamal Talıbzadə,***
***Əməkdar elm xadimi, professor***

Ölümündən sonra sağlığı hamı tərəfindən tez-tez arzulanan şəxsiyyətlər, doğrudan da, həyatı və şəxsiyyəti maraqlı olan adamlardır. Süleyman Rəhimov belə şəxsiyyətlərdəndir.

***Qılman İlkin,***
***Xalq yazıçısı***

Süleyman Rəhimov diapazonda, genişlikdə, nəfəsdə dünya ədəbiyyatında çox nadir yazıçılar var. Onu ancaq Lev Tolstoyla müqayisə etmək olar. Onlar böyük nəfəslərdir.

***Bəxtiyar Vahabzadə,***
***Xalq şairi***

S.Rəhimov zəhmətkeş yazıçıdır. Onu yaxşı başa düşmək, əsərlərini düzgün qiymətləndirmək üçün yaradıcılıq laboratoriyası haqqında müəyyən bir təsəvvürə malik olmaq lazımdır. S.Rəhimov necə işləyir? Hər şeydən əvvəl, demək lazımdır ki, mövzu onu tutur, narahat edir, illərlə, aylarla məşğul edir, düşündürür. Artıq ədib "yazmaya bilməyəndə" qələmə əl atır. O, iri əsərlərini fəsillərlə işləyir, çox düşünür, axtarır.

***Yəhya Seyidov,***
***professor***

Süleyman Rəhimov orijinal sənətkardır. O heç kəsə oxşamır.Ədəbiyyatımızda onun özünəməsus dəsti-xətti var.

***Abbas Zamanov,***
***Azərbaycan EA-nın müxbir üzvü***

Süleyman xalq içərisində kök salmış, bütün varlığı ilə xalqa bağlı olan bir yazıçıdır.

***Sabit Rəhman,***
***Əməkdar incəsənət xadimi, yazıçı***

..."Şamo" ilk Azərbaycan Sovet epopeyasıdır. O, təkcə müəllifinin deyil, ümumən ədəbiyyatımızın böyük şöhrətidir.

***Bayram Bayramov,***
***Xalq yazıçısı***

Süleyman Rəhimov qələmini nəsrin müxtəlif janrlarında sınamış, kitablarında tariximizin çox mühüm səhifələrini vərəqləmiş, kəskin sinfi toqquşmaları, zərif insani hissləri qələmə almışdır.

***Yusif Seyidov,***
***Əməkdar elm xadimi, professor***

Süleyman Rəhimov realist, novator bir sənətkardır. O, ədəbiyyatımıza bir sıra yeni mövzular gətirmiş və onları həmişə ön atəş xəttində duran sovet yazıçısı kimi həll etmişdir.

***Zeynal Xəlil,***
***Əməkdar incəsənət xadimi***

50 ilə yaxındır ki, onun da yaradıcılığı bitib-tükənməyən kəhriz kimi minlərlə, milyonlarla ürəyə sərin su çiləyir, yatmış, ətalət basmış beyinləri, şüurları oyadır, hər cür tüfeyliləri və əliəyriləri öz burulğanına salıb boğur, könüllərdə şadlıq və fərəh oyadır.

***Qulu Xəlilov,***
***filologiya elmləri doktoru, professor***

Mən hər dəfə sahil parkında ucaboylu, qollu-şaqqalı böyük adaşım Süleymanı gəzən görəndə elə bilirəm ki, nəhəng, işıqlı birqəlb irəliləyir. Böyük adaşıma daha çox və daha gözəl baharlar görməyi arzulayıram. Sənət baharları, ömür-gün baharları...

***Süleyman Vəliyev,***
***Əməkdar incəsənət xadimi, yazıçı***

Üzeyir Hacıbəyli musiqidə, Cəfər Cabbarlı dramaturgiyada, Səməd Vurğun poeziyada kimdirsə, Süleyman Rəhimov da Azərbaycan nəsrində odur. Süleyman Rəhimov bir yazıçı kimi – "Dədə Süleyman" kimi Azərbaycan xalqının mənəvi dünyasında həmişə yaşayacaq...

***Qasım Qasımzadə,***
***filologiya elmləri doktoru, şair***

Dağıstan Sizi – Qafqazın şəfəqləri uzaqdan görünən ağsaçlı və həmişəcavan zirvəsini sevir və qiymətləndirir.

***Rəsul Həmzətov,***
***Dağıstanın Xalq şairi***

Azərbaycan yazıçısı Süleyman Rəhimov ürəklərdə yuva salmış qələm ustalarındandır. O, sələflərinin – Azərbaycanın realist sənətkarlarının ədəbi irsini müvəffəqiyyətlə davam etdirir.

***Nikolay Tixonov,***
***rus yazıçısı***

Rəhimovda nasir üçün çox qiymətli olan bir qabiliyyət – dünyanı realistcəsinə doğru və bir çox təfsilatı ilə görə bilmək qabiliyyəti vardır.

***Adelina Adalis,***
***rus şairi***

Ədəbiyyatda gördüyünüz bütün işlər üçün bu şərəfli gününüzdə bir köhnə dost kimi Sizi bağrıma basıram, Sizə xoşbəxtlik, sağlamlıq arzulayıram.

***Konstantin Simonov,***
***rus yazıçısı***

Azərbaycan xalqının həyatından gözəl əsərlər yaratmış parlaq və cavan istedadınızı çox yüksək qiymətləndirirəm...

***Berdi Kerbabayev,***
***türkmən yazıçısı,dramaturq***

"Şamo" Azərbaycan xalqının həyatının cazibədar təsviri ilə rəğbət doğurur.

***Korneliy Zelinski,***
***rus ədəbiyyatşünası***

Xalq kütlələri hərəkatının... əsl Homer gücü ilə göstərilməsi romanın ("Şamo") ən qüvvətli cəhətini təşkil edir.

***Yuri Libedenski,***
***rus yazıçısı***

Süleyman Rəhimovun janr etibarilə rəngarəng olan nəsr əsərləri bir nəhrin böyük və kiçik qolları kimi, Azərbaycan xalqının inqilabi keçmişini təşkil edən epopeyaya daxil olur. S.Rəhimovun "Şamo" əsərinin meydana çıxması Azərbaycan dəbiyyatında əlamətdar bir hadisədir. Çünki bu əsər xalq həyatından yazılmış bir əsərdir. Xalqın tarixi inkişafının dönüş mərhələsində xalq həyatının ən mühüm məsələlərini açıb göstərən sosialist millətləri ədəbiyyatının müəyyən bir dövrü üçün yazılmış qiymətli bir əsərdir.

***Zoya Kedrina,***
***rus yazıçısı***